AZƏRBAYCAN CÜDO FEDERASIYASININ

# ETİKA MƏCƏLLƏSİ



VERSİYA: 09 İYUN 2022

# “Azərbaycan Cüdo Federasiyası” İctimai Birliyinin Etika Məcəlləsi

Bu Məcəllə, Beynəlxalq Cüdo Federasiyası tərəfindən 22.08.2019-cu il tarixində təsdiq olunmuş Beynəlxalq Cüdo Federasiyasının Etika Məcəlləsinə uyğun olaraq hazırlanmışdır.

## 1. GİRİŞ:

1964-cü ildən etibarən olimpiya idman növü olan cüdo, 1882-ci ildə Ciqaro Kano tərəfindən əsas məqsədi kişilərin və qadınların fiziki və intellektual tərbiyəsi olan döyüş sənəti olaraq yaradılıb.

Cüdonun yaranmasına səbəb olan əsas prinsiplərə uyğun olaraq, Azərbaycan Cüdo Federasiyası (ACF) Azərbaycanda cüdo ilə məşğul olan hər kəs üçün uyğunlaşdırılmış Etika Məcəlləsi hazırlamışdır. Bu Etika Məcəlləsi, Beynəlxalq Olimpiya Komitəsi və Beynəlxalq Cüdo Federasiyasının (BCF) Etika Məcəllələrinin əsas prinsiplərini özündə əks etdirir və onlara əsaslanır.

Bu səbəbdən, ACF-in bütün üzvləri və ACF-in işlərinin tədbirlərinin təşkilində iştirak edən hər kəs bu təhsil dəyərlərini, davranış qaydalarını tətbiq etməli və Etika Məcəlləsinin bütün sahələrdə, yerlərdə və şəraitdə (yarış yeri, məşq yeri, media platformaları və s.) əməl olunmasını təmin etməlidirlər.

## 2. BEYNƏLXALQ OLİMPİYA KOMİTƏSİNİN ETİKA MƏCƏLLƏSİ:

**“...LƏYAQƏT**

Şəxsin ləyaqətinin qorunması Olimpiya hərəkatının fundemental tələbidir.

İştirakçılar arasında irqinə, cinsinə, etnik mənşəyinə, dininə, fəlsəfi və ya siyasi əqidəsinə, ailə vəziyyətinə və ya digər əsaslara görə heç bir ayrı-seçkiliyə yol verilmir.

Bütün səviyyələrdə bütün dopinq təcrübələri qəti şəkildə qadağandır. Ümumdünya Antidopinq Məcəlləsində dopinqə qarşı təsbit olunan müddəalara ciddi şəkildə əməl edilməlidir.

İştirakçılara münasibətdə hər cür təqib formaları, eləcə də fiziki, peşəkar, dini, siyasi, iyerarxik və ya cinsi təqib və hər hansı fiziki və ya mənəvi ziyan vurulması qadağandır.

Ümumilikdə idmana və daha konkret olaraq, Olimpiya Oyunlarına aid mərc oyunlarının təşviqinin bütün formalarında iştirakın və ya dəstəklənməsinin bütün formaları qadağandır və heç bir şəkildə ədalətli oyun prinsipi pozulmamalı, qeyri-idman davranışı nümayiş etdirilməməli və ya idman etikasına zidd şəkildə yarışın nəticələrinə təsir göstərməyə cəhd edilməməlidir...”.

ACF-in rəhbər şəxsləri, rəsmiləri, üzvlərində təmsil olunan şəxslər, cüdo ailəsinin geniş mənada bütün üzvləri Olimpiya xartiyasının və Etika Məcəlləsinin müddəalarına hörmət etməyi öz öhdələrinə götürürlər.

3. **RƏQİBLƏR:**

*Rəqiblər, xüsusilə də Çempionlar cüdonun siması hesab olunur; onlar öz davranışı ilə təhsil dəyərlərini və bizim idman növünün etikasını digərlərinə ötürməlidirlər.*

***Çempionlar tatami üzərində və ondan kənarda cüdonun imicini təmsil edirlər.***

***DÖYÜŞ MƏRASİMİNƏ HÖRMƏT***

Təzim mərasimi BCF-in Təhsil Komissiyası tərəfindən rəsmiləşdirilib. Buna ciddi şəkildə riayət edilməlidir.

Təzim və xüsusən də döyüşün əvvəlində rəqibə edilən təzimə ciddi şəkildə riayət edilməli və digər idman növlərinin təzim və mərasimlərdən istifadə etmək qadağandır.

Döyüşün sonunda rəqibi təbrik etmək və ya qeyri-etik davranış üçün üzr istəmək təbii ki, icazəlidir.

***QAYDALARA HÖRMƏT***

İdman qaydalarına, onun antidopinq və mərc oyun qaydalarına ciddi şəkildə riayət edilməlidir.

***İNSANLARA VƏ OBYEKTLƏRƏ HÖRMƏT***

Rəqiblərlə, məşqçilərlə, hakimlərlə, təşkilatçılarla, qonaqlarla, media nümayəndələri ilə və ümumilikdə ictimaiyyət təmsilçiləri ilə hər zaman hər hansı aqressiv və ya nalayiq jestlər edilmədən, sakit və hörmətlə ünsiyyət qurulmalıdır.

Antidopinq Məcəlləsinə və idman mərc oyunlarına dair qaydalara əməl edilməlidir.

Qələbə və məğlubiyyət özünü idarə etməklə eyni şəkildə qəbul edilməli və heç bir nümayişkəranə davranış göstərilməməlidir.

Bütün vəziyyətlərdə özünüzə nəzarət edin və intizamlı olun.

İstifadənizə verilmiş avadanlıqları korlamayın və əmin olun ki, ixtiyarınıza istifadə üçün verilmiş bütün obyektlər, otellər, idman qurğuları və digər yerlərin istifadə qaydalarına hörmət olunur.

Cüdoçular cüdo idman növünü, ölkələrinin milli yığmalarını və aid olduqları klubları və idman cəmiyyətlərini təmsil edirlər və gündəlik davranışlarında bunu hər zaman nəzərə almalıdırlar.

### *TƏLİMATLARA VƏ PROTOKOLA HÖRMƏT*

Yarış qaydalarına və təşkilatçıların göstərişlərinə, xüsusən də yarış qrafiklərinə və müxtəlif digər protokollara və qaydalara riayət edin.

Mükafat mərasimlərində və digər tədbirlərdə qarşılıqlı hörmət prinsiplərinə riayət edin və həmişə öz münasibət və hisslərinizi nəzarətdə saxlayın.

### *GİGİYENAYA HÖRMƏT*

Fiziki görünüş və təmizlik önəmlidir. İstənilən infeksiyadan qorunun. BCF-in qaydalarına uyğun olaraq təmiz cüdoqi ilə meydana çıxın. Tatamidən kənarda həmişə ayaqqabı geyinin və heç vaxt nə döyüş tatamisinin, nə də isinmə tatamisinin üzərində ayaqqabı ilə çıxmayın.

### *BAŞQALARINA HÖRMƏT*

Döyüşdən əvvəl, döyüş vaxtı və ya döyüşdən sonra, həmçinin rəsmi mərasimlər zamanı hər hansı əşya, işarə, dini jestlər və ya hər hansı iddialı hərəkət formasını nümayiş etdirməyin.

### *QƏRARLARA HÖRMƏT*

Həm yarış zamanı, həm də yarışdan sonra şikayət etmədən hakimlərin qərarlarına hörmət edin.

KÖNÜLLÜ OLARAQ DÖYÜŞÜ HEÇ VAXT UDUZMAYIN və döyüşü uduzmaq üçün sizə təklif edilən hər hansı hədiyyə barədə dərhal ACF-ə məlumat verin.

## 4. MƏŞQÇİLƏR VƏ ONLARIN KOMANDALARI

### *“ƏDALƏTLİ OYUN”A (“FAIR PLAY”) ƏMƏL EDİN*

Rəqibə, onun məşqçisinə, komandasının üzvlərinə, hakimlərə, təşkilatçılıqda iştirak edən istənilən şəxsə, qonaqlara, media və ictimaiyyət nümayəndələrinə hörmət edin.

“Fair play” qaydalarına əməl edin və həmişə nümunəvi davranış göstərin.

### *QAYDALARA HÖRMƏT*

Etika Məcəlləsinə, BCF-in və ACF-in Nizamnaməsinə və qaydalarına, idman təşkilatının qaydalarına, antidopinq və mərc oyun qaydalarına, təşkilatçıların göstərişlərinə, xüsusən də yarış qrafiklərinə və müxtəlif digər protokollara və qaydalara riayət edin.

Çərçivələri aşmamaq şərtilə məşqçilərin rolunu müşahidə edin.

Yerli adətlərə uyğun olaraq, yalnız çox kiçik dəyərə malik hədiyyələr, minnətdarlıq və ya dostluq əlaməti olaraq təklif və ya qəbul edilə bilər. İstənilən digər hədiyyələr şəxsin aid olduğu təşkilata verilməlidir.

ACF-in üzvlərinə, işçilərinə və onları müşayiət edən hər kəsə qarşı qonaqpərvərlik, qəbul edilmiş ümumi normalardan artıq olmamalıdır.

Maraqların toqquşması ilə bağlı tənzimləmə qaydalarına hörmət edilməlidir.

İdman mərc oyunlarına dair Beynəlxalq Olimpiya Komitəsinin qaydalarına və təlimatlarına ciddi əməl edilməlidir.

Hakimlər korpusunun qərəzsizliyinə hörmət edin və dürüstlüyünü müdafiə edin.

### *ETİKETƏ HÖRMƏT*

Yarışların müxtəlif mərhələləri və onlara aid tədbirlərin hər biri üçün tələb olunan geyim qaydalarına əməl edin və bu qaydalara hörmət edin.

Qələbədə təvazökar qalın və məğlubiyyəti ləyaqətlə qəbul edin. Özünüzə nəzarət edin və nizam-intizamlı olun: qəzəb və ya məyusluq hisslərinizi göstərməyin, hisslərinizi idarə edin.

Döyüş zamanı və ondan sonra şikayət etmədən hakimlərin qərarlarına hörmət edin.

Özünüzü həmişə ləyaqətli və hörmətli aparın.

### *BAŞQALARINA HÖRMƏT*

Döyüşdən əvvəl, döyüş vaxtı və ya döyüşdən sonra, həmçinin rəsmi mərasimlər zamanı hər hansı əşya, işarə, dini jestlər və ya hər hansı iddialı hərəkət formasını nümayiş etdirməyin.

Döyüşdən əvvəl, döyüş zamanı və ya sonra cüdonun ruhuna və qaydalarına uyğun gəlməyən, nəzarətsiz jest və ya başqa hərəkətlərlə başqalarına qarşı hörmətsizlik göstərməyin.

Yarışda və / və ya məşqdə hər hansı cüdoçuya və ya hər hansı bir digər şəxsə qarşı təhqiramiz fiziki davranışlar göstərməyin və təhqiramiz şifahi ifadələr işlətməyin.

### *OBYEKTLƏRƏ HÖRMƏT*

Otellər də daxil olmaqla, bütün ayrılmış ərazilərdə və məkanlarda, idman qurğularında və digər yaşayış yerlərində, obyektlərdə bütün avadanlıqlara qayğı ilə yanaşın və normal istifadə edin.

Məşqçilərin və cüdoçuların harada olduqlarına baxmayaraq, öz idman növlərini, nizam-intizamlarını, klublarını və ölkələrinin milli komandalarını layiqincə təmsil etmələri gözlənilir.

5. **HAKİMLƏR**

***QAYDALARA HÖRMƏT***

BCF-nin və ACF-in Etika Məcəlləsinə, Nizamnamələrinə və qaydalarına, eləcə də yarış təşkilatçılarının qaydalarına, göstərişlərinə və xüsusən də yarış qrafiklərinə hörmət edin.

Hakimlərin səlahiyyətləri daxilindəki vəzifə və tapşırıqları həmin səlahiyyətləri aşmadan yerinə yetirin. Hakimlərin davranış kodeksinə hörmət edin.

Yerli adətlərə uyğun olaraq, yalnız çox kiçik dəyərə malik hədiyyələr, minnətdarlıq və ya dostluq əlaməti olaraq təklif və ya qəbul edilə bilər. İstənilən digər hədiyyələr şəxsin aid olduğu təşkilata verilməlidir.

ACF-in üzvlərinə, işçilərinə və onları müşayiət edən hər kəsə qarşı qonaqpərvərlik, qəbul edilmiş ümumi normalardan artıq olmamalıdır.

Maraqların toqquşması ilə bağlı tənzimləmə qaydalarına hörmət edilməlidir.

İdman mərc oyunlarına dair Beynəlxalq Olimpiya Komitəsinin qaydalarına və təlimatlarına ciddi əməl edilməlidir.

Hakimlər korpusunun qərəzsizliyinə hörmət edin və dürüstlüyünü müdafiə edin.

***ETİKETƏ HÖRMƏT***

Düzgün uniforma geyinin və geyim qaydalarına əməl edin.

İstənilən şəraitdə, nə olursa olsun, həm tatamidə, həm də ondan kənarda özünüzə nəzarət edin, nəzakətli və düzgün davranış nümayiş etdirin, emosiyalarınızı idaə edin.

Yarış zamanı verilən hakim qərarları ilə bağlı öz mülahizənizi özünüzdə saxlayın.

ACF-in xahiş etdiyi və ya icazə verdiyi hallar istisna olmaqla, yarış zamanı hər hansı bəyanat və ya açıqlama verməkdən çəkinin.

6. **MENECERLƏR VƏ ƏMƏKDAŞLAR**

***QAYDALARA HÖRMƏT***

ACF-in, klubların, idman cəmiyyətlərinin və idman təşkilatlarının menecerləri və əməkdaşları Azərbaycan cüdo ailəsinin nümayəndələridir və onlar bu ada uyğun olaraq davranış nümayiş etdirməlidirlər.

Menecerlər və əməkdaşlar öz rollarını aşmadan bu Etika Məcəlləsinə, ACF-in Nizamnaməsinə və qaydalarına hörmət etməlidir.

Yerli adətlərə uyğun olaraq, yalnız çox kiçik dəyərə malik hədiyyələr, minnətdarlıq və ya dostluq əlaməti olaraq təklif və ya qəbul edilə bilər. İstənilən digər hədiyyələr şəxsin aid olduğu təşkilata verilməlidir.

ACF-in üzvlərinə, işçilərinə və onları müşayiət edən hər kəsə qarşı qonaqpərvərlik, qəbul edilmiş ümumi normalardan artıq olmamalıdır.

Tərəflər maraqların toqquşması ilə bağlı qaydalara hörmət edəcək və bu cür maraqların toqquşması qarşısının alınmasında iştirak edəcəklər. ACF-lə müqavilə bağlayarkən, xüsusən kommersiya müqavilələri bağlanan zaman strukturda (şirkət, asossasiya, fond və s.) sahib olduqları bütün maraqları (maliyyə əlaqələri, səhmdarlıq, rəhbərlik, əmək müqaviləsi və s.) bəyan edəcəklər.

Maraqların toqquşması dedikdə müstəqilliyə, qərəzsizliyə və mövqeyin obyektiv həyata keçirilməsinə mane olan, təsir göstərən və təsir göstərə biləcək situasiya başa düşülür.

İdman mərc oyunlarına dair Beynəlxalq Olimpiya Komitəsinin qaydalarına və təlimatlarına ciddi əməl edilməlidir.

### *ETİKETƏ HÖRMƏT*

Tədbirlərə uyğun geyim qaydalarına əməl edin.

### *BAŞQALARINA HÖRMƏT*

Döyüşdən əvvəl, döyüş vaxtı və ya döyüşdən sonra, həmçinin rəsmi mərasimlər zamanı hər hansı əşya, işarə, dini jestlər və ya hər hansı iddialı hərəkət formasını nümayiş etdirməyin.

Döyüşdən əvvəl, döyüş zamanı və ya sonra cüdonun ruhuna və qaydalarına uyğun gəlməyən, nəzarətsiz jest və ya başqa hərəkətlərlə başqalarına qarşı hörmətsizlik göstərməyin.

Rəqiblərə və ya hər hansı digər şəxsə qarşı fiziki və ya şifahi zorakılıq etməyin.

### *RESURSLARA HÖRMƏT*

İdman və özəl qurumlar tərəfindən menecerlərin və əməkdaşların ixtiyarına verilmiş resurslardan və vəsaitdən tam şəffaf şəkildə istifadə edin.

## 7. ETİKA KODEKSİNİN POZULMASI

Müəyyən edilmiş faktların ciddiliyindən asılı olaraq, Etika Məcəlləsin pozulmasına dair sübutlar olduqda, həmin şəxsə şifahi xəbərdarlıq edilir və ya lazım gələrsə, hadisənin baş verdikdən sonra ən geci bir həftə ərzində ACF-in Baş katibinə yazılı hesabat göndərilir.

Yazılı hesabat açıq şəkildə olmalı və hadisədə baş vermiş faktlar, hadisədə iştirak etmiş şəxslərin adları, ifadələri, ünvanı və telefonu göstərilmək şərtilə, dəqiq qeyd etməlidir. Qeyd olunan məlumatlar hadisənin daha yaxşı başa düşülməsi üçün göstərilir.

Faktların xarakterindən və ağırlığından asılı olaraq, ACF-in Baş Katibi, ACF-in Prezidenti ilə razılaşdırmaq şərtilə aşağıdakı tədbirlərdən birini görə bilər:

- Etika Məcəlləsinin pozuntusuna gətirib çıxaran, cüdo idman növünün Ruhuna zidd olan halların qarşısının alınması ilə bağlı birbaşa tədbirlər görmək;
- Məsələni ACF-in Nizam-İntizam Komitəsinin müzakirəsinə çıxarmaq;
- Məsələni araşdırılması üçün kənar təşkilatlara (məsələn, hüquq-mühafizə orqanları və s.) göndərmək.

İstənilən halda, Baş Katib görülmüş tədbirlər haqqında İcraiyyə Komitəsinə məlumat verməlidir.